Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Beynəlxalq şahmat günü

**Beynəlxalq şahmat günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**20 iyul Beynəlxalq şahmat günü** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 44 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

# GİRİŞ

## Şahmat nə vaxt, necə yaranıb?

İnsanlar tərəfindən icad olunan oyunların içərisində elə bir oyun var ki, həm idmana, həm elmə, həm də incəsənətə yaxındır. O, yaddaşı gücləndirir, diqqəti və səbri artırır, çətin vəziyyətlərdən çıxış yolu tapmaq və ani qərar qəbul etmək vərdişləri formalaşdırır. Yəqin ki, söhbətin şahmatdan getdiyini duydunuz. Bəs şahmat nə vaxt və necə yaranıb?

Şahmat oyunu 1500 il bundan əvvəl Hindistanda meydana gəlib və ilk vaxtlar "çaturanq" adlanırdı. Bu oyunun qaydaları vaxt ötdükcə dəyişərək indiki halını alıb.

Rəvayətə görə hind müdriklərindən biri çaturanq oyununu qanlı müharibələrin qarşısını almaq üçün icad edib: Döyüş əməliyyatlarını adi taxta üzərində aparmaq və qələbəni insanın ən güclü silahı – ağılla qazanmaq mümkündürsə, onda nəyə görə qan tökülsün?

Bu oyun hind şahzadəsini valeh edir. Şahzadə bu oyunu icad edən şəxsi mükafatlandırmaq məqsədi ilə saraya çağıraraq deyir: Nə arzun varsa, de, yerinə yetirim. Həmin müdrik şəxs birinci xana üçün 1, ikinci xana üçün 2, üçüncü xana üçün 4, dördüncü xana üçün 256 və bu minvalla 64 xananın hər biri üçün həndəsi silsilə ilə artan qaydada buğda istəyir.

İxtiraçının istəyinin bir kisə buğdadan çox olmayacağını düşünən şahzadə bu xırda ənamı verməkdən utanır və həmin şəxsə çoxlu qızıl-gümüş təklif edir. Müdrik şəxs bununla razılaşmır. Şahzadə xəzinədarı çağırır və xahişi yerinə yetirməyi əmr edir. Səhəri gün xəzinədar şahzadəyə ixtiraçının istədiyi buğdanın həddən çox olduğunu xəbər verir. Bunun 18 446 744 073 709 551 616, yəni 18 kvintilyon 446 kvadrilyon 744 trilyon 73 milyard 709 milyon 551 min 616 buğda dənəsi etdiyini deyir.

Bu qədər buğdanı bir yerə yığmaq üçün hündürlüyü 4 metr, eni 10 metr, uzunluğu isə... 30 milyon kilometr olan anbar gərəkdir. Şahzadə heyrətlənir və müdrik insanın ağlına bir daha heyran qalır.

İndi isə şahmat oyunu və fiqurları haqda danışaq. Bu döyüş meydanında bir-birinə qarşı ağ və qara fiqurların orduları düzülür. Oyunçular isə bu orduların komandirləridir.

Hər qoşunun tərkibinə 16 döyüşçü daxildir. Bunlar şah, vəzir, 2 top, 2 fil, 2 at, və 8 piyadadır. Döyüş meydanının künclərinə toplar, onların yanına atlar, fillər düzülür. Şah və vəzir fiqurların tən ortasında qərar tutur. Ağ vəzir ağ xanada, qara vəzir isə müvafiq olaraq qara damada mövqe tutur. Bu fiqurların qabağında isə bütün cərgə boyu piyadalar düzülür.

Oyuna ilk olaraq ağ fiqurlar başlayır, qaralar cavab gedişi edirlər. Oyun bu minvalla növbə ilə davam edir. Hər fiqurun özünə məxsus gedişi var. Vəzir ən güclü fiqur hesab edilir. Ondan sonrakı ən güclü fiqur topdur. Fil və at mövqedən asılı olaraq təxminən bərabər gücə malikdirlər. Şahmatda ən zəif fiqur piyadadır. Digər fiqurlar həm irəliyə, həm də geriyə hərəkət edə bildikləri halda, piyada yalnız irəli gedə bilər. Özü də yalnız bir xana. Amma əgər piyada düşmən mövqeyinin son xanasına gedib çıxarsa, şahdan başqa istənilən fiqura çevrilə bilər. Bu döyüşdə əsas fiqur isə əlbəttə ki, şahdır. Buna görə də təəbələri onu daim qorumalı və təhlükəsizliyini nəzarət altında saxlamalıdırlar. Əgər şah qoruna və ya qaça bilmirsə, oyun uduzulmuş sayılır. Necə deyərlər, "şah" və "mat".

Şahmat hər şeydən əvvəl mübarizədir. 64 xanalı taxta lövhə üzərində cansız fiqurlar arasında gedən səssiz-səmirsiz döyüş-şahmat mübarizəsi insanda təhlil qabiliyyətini artırır, təxəyyülü gücləndirir, dözüm, inad, qətiyyət və dəmir iradə tərbiyə edir. Şahmatda demokratiya ünsürləri daha çoxdur.

İstedadlı və fərasətli adamların ali vəzifələrə ucalması şahmatda piyadanın vəzirə çevrilməsi şəklində özünü biruzə verir. Şahmat həmişə öz fiqurlarının köməyinə möhtacdır, zalım şahların mat edilə biməsi ideyası köhnə üsul-idarələrin əbədi olmamasına işarədir. Şahmat ədəbiyyatının sürətlə artması xeyli dərəcədə bu oyunun kütləviləşməsinə imkan yaradır.

Hazırda dünya və Avropa birinciliklərdə şahmatçılarımız yüksək nəticələr əldə edir və Azərbaycan bayrağını yüksəklərə qaldırırlar. Dünyanın tanınmış qrossmeysterlər sırasına Şəhriyar və Zeynəb Məmmədyarovlar, Teymur Rəcəbov, Vüqar Həşimov, Qədir Hüseynov, Rauf Məmmədov daxil olmuşlar.

Şəxsi birinciliklərlə yanaşı komanda yarışlarında da yığma komandamız yüksək nəticələr qazanır. Bu da ilk növbədə ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə XX əsrin 80-ci illərin əvvəllərində Respublikamızın bütün rayonlarında açılmış şahmat məktəblərinin fəaliyyəti və bu sahədə güclü bazanın olması nəticəsindədi.

Bəli, elə bunun nəticəsidir ki, hər il 20 iyul Beynəlxalq Şahmat günü kimi qeyd olunur. Təqvimə salınan bu gün şahmat sevərlər üçün ən gözəl gündür.



## Şahmat oyununun yaranması və yayılması tarixi

İnsan zəkasının yaradıcılıq məhsulu olan şahmat bu gün yalnız sadəcə bir oyun kimi deyil, həm də bəşər mədəniyyətinin maraqlı bir sahəsi kimi yüksək qiymətləndirilir. Şahmatın vətəni Hindistandır. Nə vaxt meydana gəldiyi indiyədək müəyyən edilməmişdir. Bu məsələdə təqdiqatçılar müxtəlif mövqe tuturlar. Y.Neyştad, H.Merrey, A.Linde şahmatın yaşının 1000 il, Y.Roxlin, İ.M.Linder, Z.Xocayev və F.Dümmel təqribən 1500 il, M.S.Koqan və V.Panov isə 2000 ildən çox olmasını göstərirlər. Hind tarixçisi T.Krişnamaçar şahmatın tarixini b.e.ə. V-VI əsrlərə, yəni təqribən 2500 il bundan əvvəlki dövrlərə aid edir. İran tarixçisi Murtuza Ravəndi isə 1924-cü ildə Hindistanın Aşağı Sind əyalətinin qərbində aparılan qazıntı zamanı miladdan 3000-4000 il əvvəllərə aid edilən şahmat daşları tapıldığı haqda məlumat verir. Şahmatın guya 3000 il bundan əvvəl Seylonda meydana gəlməsi və oradan da Misirə və Yunanstana yayılması haqqında da fərziyyələr vardır. Çətinlik burasındadır ki, nisbətən qədim müəlliflərdən Təbəri, Biruni və qeyriləri şahmat haqqında xeyli maraqlı məlumatlar versələr də, onun meydana çıxdığı dövr barədə heç bir söz deməmişlər.



## Bölmə I

## Azərbaycanda şahmatın inkişaf tarixi

**Şahmat insanı saflaşdıran və kamilləşdirən idman növüdür.**

**Heydər Əliyev,**
**Ümummilli lider**

Azərbaycanda şahmatın intellektual idman növü kimi tarixi qədim zamanlara gedib çıxır. Ölkəmizdə şahmat oyunu özünü təsdiq edənə qədər böyük inkişaf yolu keçmişdir. Tədqiqatçıların fikrincə, şahmatın ilk forması olan çətrəngin əsrlər boyu təkmilləşdirilib şətrənc (şahmatın ikinci inkişaf mərhələsi) halına salınmasında, həmçinin şətrəncin inkişaf etdirilib müasir şahmata çevrilməsində böyük əmək sərf etmiş xalqlardan biri də azərbaycanlılar olub.

Azərbaycan xalqının görkəmli elm, sənət adamları hələ qədim zamanlarda uzaq Hindistanda şahmatın yaradılması ilə maraqlanmış, onun başqa ölkələrə yayılmasını daim izləmiş və özləri də VI əsrin axırlarında həmin oyunla yaxından məşğul olmuşlar. Lakin o dövrün şahmat oyunçularından heç kəsin adı bizə məlum deyil. Orta Asiya əlyazmasında adı çəkilən ilk Azərbaycan şahmatçısı Cəlaləddin Naxçıvanidir (IX əsr). Bu qədim əlyazmada Qədim Orta Asiyada peşəkar oyunu ilə hamını heyran edən Cəlaləddin Naxcıvaninin adı orta əsrin ən görkəmli şahmatçıları ilə bir sırada çəkilir.

Xaqani Şirvani (XII əsr), Nizami Gəncəvi (XII əsr), İmadəddin Nəsimi (XIV əsr), Məhəmməd Füzuli (XVI əsr) kimi dahi mütəfəkkirlərimiz öz əsərlərində şahmatı tərənnüm etmiş, onun haqqında mənali, dərin fikirlər söyləmişlər. XI əsrdə yaşamış görkəmli mütəfəkkirimiz Qətran Təbrizlinin əsərlərində o dövrün şahmatı haqqında maraqlı məlumatlar verilmişdir.

Dövrün digər böyük mütəfəkkiri Xaqani Şirvani də əsərlərində Azərbaycanda şahmat mədəniyyətinin geniş yayılması haqqında çox əhəmiyyətli məlumatlar vermişdir. Bütün tədqiqat əsərlərindən məlum olduğu kimi, XII əsrin böyük şairlərindən Məhsəti Gəncəvi şahmat oynamağı sevirmiş. O, Şərqin şahmat oyunu ilə maraqlanan ilk qadınlarından biri hesab olunur. Hətta bəzi mənbələrdə Məhsəti Gəncəvinin dövrünün qabaqcıl şahmat ustalarından biri olduğu vurğulanmışdır.

Xoşbəxtdir rüxünə rüx qoysa hər kəs,
Rüxün eyləyəni şah edə bilməz.
Mən oyuna baxım, yoxsa rüxünə?
Bu halda neyləyim, mat qalmayım bəs?

Şairə həmin rübaidə şahmat oyununun xüsusiyyətlərindən danışır. “Rüx” sözü şeirdə bir neçə dəfə təkrar olunmasına baxmayaraq, hər misrada ayrı-ayrı mənalarda işlənmişdir. Birinci misrada “rüx” sözü fars dilindəki üz mənasında işlənmişdir. İkinci misradakı “rüx” sözü gedişi ilə fərqlənən şahmat oyunundakı fiqurun adıdır. Bu rübainin yaranma tarixçəsi ilə bağlı belə bir rəvayət vardır ki, bir gün Məhsəti Gəncəvi həyat yoldaşı Xətiboğlu ilə şahmat oynayırmış. Rübaidən də aydın olduğu kimi, Xətiboğlu oyun prosesində rüxlə (vəzirlə) şah elan edir. Məhsəti xanımın şahı müdafiə etmək imkanı olmadığı üçün mat vəziyyətində qalır. O, pərt olmamaq üçün bədahətən həmin rübaini deyir. Rübainin lirik məzmunu ondan ibarətdir ki: sən o qədər gözəlsən ki, sifətinin gözəlliyi mənim diqqətimi cəlb elədi, fikrim oyundan yayındı. Belə halda mən necə mat olmayım.

Böyük alim, mütəfəkkir və dahi şairimiz Nizami Gəncəvi şahmat mədəniyyətinə çox böyük əhəmiyyət verirdi. Onun əsərləri təkcə Azərbaycanda deyil, ümumiyyətlə, bütün Şərq ölkələrində şahmatın tarixini öyrənmək üçün son dərəcə qiymətli material hesab olunur. Nizami şahmatın adını ilk dəfə "Xosrov və Şirin" poemasında çəkmişdir.

Zəmanə Xosrova olmadı pənah,
Bəhram qarşısında məğlub oldu şah.
Müxalif şətrəncdə qanlı zəmanə
"Şah!" dedi Xosrova, vermədi xanə.

1926-cı ildə şahmat üzrə Bakı, 1934-cü ildə isə ilk Azərbaycan çempionatı keçirilmişdir. Ötən əsrin 70-ci illərindən başlayaraq, Azərbaycanda şahmata dövlət səviyyəsində xüsusi qayğı göstərilirdi. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Sovet İttifaqında şahmata olan diqqəti ilə seçilən bir respublika idi. Hələ o dövrdə 60-a yaxın uşaq-gənclər şahmat məktəbi tikilib istifadəyə verilmişdir. Bu, daha çox gələcəyə istiqamətlənmiş bir addım idi. Ulu öndərin məqsədyönlü fəaliyyəti, çox keçmədi ki, öz bəhrəsini verdi. 1990-cı ildə Azərbaycanın ilk beynəlxalq qrossmeysteri, İslam dünyasında isə qadınlar arasında ilk beynəlxalq qrossmeyster adını həmyerlimiz Aynur Sofiyeva qazandı.

1993-cü ildən etibarən şahmatın inkişafı müstəqil dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Azərbaycan şahmatçıları dünya şahmat tarixinə ilkləri ilə imza atdılar. 1991-ci ildən sonra müstəqil Azərbaycan şahmatının tarixində ilk dəfə olaraq ölkəyə birinci qızıl medalı Qədir Hüseynov gətirmişdir. 1994-cü ildə o, 8 yaşındaykən Ruminiyada keçirilən uşaqlar arasında Avropa çempionatında birinci yeri tutduqdan sonra dünyanın ən gənc

FİDE ustası kimi “Ginnesin Rekordlar kitabı” na düşmüşdür. 2001-ci ildə Teymur Rəcəbov 14 yaşında ikən dünyanın ən gənc qrossmeysteri rekordunu yeniləmişdi. O, şahmat vunderkindi hesab olunur. Teymur Rəcəbov 2003-cü ildə Harri Kasparova qalib gələrək dünya çempionunu məğlub edən ən gənc şahmatçı kimi şahmat tarixinə düşdü. Bu qarşılaşma həmin il Linares (İspaniya) superturnirində ən yaxşı oyun mükafatına layiq görülmüşdü. Həmin il Teymur Hindistanlı Vişvanatan Anandı və ukraynalı Ruslan Ponomaryovu qara fiqurlarla məğlub etmişdir. Bu nəticə ilə də Teymur Rəcəbov bir ildə üç FİDE dünya çempionunu məğlub edən yeganə şahmat ustası hesab edilir. Azərbaycanın parlaq zəka nəslinin digər nümayəndələri Məmmədyarovlar ailəsidir. Bu ailə Azərbaycanda yeganə şahmat ailəsidir ki, üç beynəlxalq qrossmeyster yetişdirmişdir: Şəhriyar Məmmədyarov, böyük bacısı Zeynəb Məmmədyarova və kiçik bacısı Türkan Məmmədyarova. Fərdi dünya və Avropa birinciliklərindən Azərabycanın şahmat xəzinəsinə bu ailə tərəfindən 12 medal gətirilmişdir. Bunlardan 7-si qızıl, 3-ü gümüş, 2-si bürünc medallardır. Şəhriyar Məmmədyarov fərdi yarışlarda 4 qızıl, 2 gümüş və 1 bürünc medalın sahibidir. O, yeganə şahmatçıdır ki, 20 yaşınadək gənclər arasında ikiqat dünya çempionu tituluna sahib olmuşdur.

Azərbaycan şahmatına böyük uğurlar qazandıran mərhum şahmatçımız Vüqar Həşimovun da adı xüsusi vurğulanmalıdır. O, dünyanın ən qabaqcıl, Azərbaycan tarixinin ən böyük şahmatçılarından biri olub. 2009-cu ildə dünya şahmatçılarının reytinq siyahısında 6-cı pilləyədək irəliləmiş, dəfələrlə ilk onluğa daxil olaraq planetin ən güclülərindən biri olmağı bacarmışdı. 2009-cu ildə kişilərdən ibarət yığmamızın Avropa çümpionatında qalib gəlməsində həlledici rol oynamışdı.

Təsadüfi deyildir ki, Vüqar Həşimovun ölümü ilə bağlı nüfuzlu "The New York Times" qəzetində dərc olunmuş yazıda o, dünyanın aparıcı şahmatçılarından biri kimi qələmə verilmişdi (13.01.2014).

## Ümumdünya Şahmat olimpiadası-2016

2002-ci ildə şahmat üzrə avropa çempionatı, 2003-cü ildə Naxçıvan-da gənclər arasında dünya çempionatı, 2008-ci ildə Bakıda FIDE-nin Qran-pri seriyasının Heydər Əliyevin xatirəsinə həsr olunmuş turniri, mərhum şahmatçımız, Avropa çempionu Vüqar Həşimovun xatirəsinə həsr olunan, 2014-cü ildən etibarən ənənəvi olaraq təşkil edilən və dünyanın ən güclü şahmatçılarını bir araya toplayan "Shamkir Chess" super-turniri, şahmat üzrə 2015-ci il Dünya kuboku və bu il Ümumdünya Şahmat Olimpiadasının Azərbaycanda keçirilməsi Beynəlxalq Şahmat Fedarasiyasının ölkəmizə göstərdiyi yüksək etimadın bariz nümunələrindən biri idi.

Bu mötəbər yarışda 175 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparırdı. Bu, iştirakçı ölkələrin sayına görə olimpiada tarixində rekord göstərici sayılırdı. On bir turdan ibarət yarışlar sentyabrın 13-də yekunlaşdı. Azərbaycan Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunurdu. Qeyd edək ki, Bakının ev sahibliyi etdiyi 42-ci Şahmat Olimpiadası indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarışlardan idi. Dünyanın ən güclü şahmatçıları Odlar yurdunda toplaşaraq öz zəkasını, məntiqini sınayırdı.

Beynəlxalq Şahmat Fedarasiyasının prezidenti Kirsan İlyumjinov sentyabrın 3-də təşkil etdiyi mətbuat konfrasında Azərbaycanın bu etimadı artıqlaması ilə doğrultduğunu ifadə

etmişdir. O qeyd etmişdir, FIDE-nin tarixində ən yaddaqalan olimpiadalardan biri, bəlkə də birincisidir.

Avropa Şahmat İttifaqının (ECU) prezidenti Zurab Azmayparaşvili isə çıxışında Bakı Şahmat Olimpiadasını tarixdə ən yaxşı Olimpiada adlandırmış, yarışın təşkilatçılıq baxımından ən yüksək səviyyədə olduğunu qeyd etmişdir. Bir çox nüfuzlu xarici nəşrlər Bakıda keçirilən Ümumdünya Şahmat Olimpiadasına, Azərbaycanın yüksək təşkilatçılığına və qonaqpərvərliyinə həsr olunan məqalələr dərc etmişlər.

On bir turdan ibarət yarışlarda kişilərin mübarizəsində aktivində 20 xal olan ABŞ millisi çempion adını qazanmışdı. Eyni xala malik Ukrayna isə ikinci yeri tutub. Rusiya millisi 17 xalla bürünc medal qazanıb. Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Rauf Məmmədov, Eltac Səfərli və Arkadi Naydiçin daxil olduğu əsas komandamız yarışı 15 xalla 12-ci sırada tamamlayıb. Vasif Durarbəyli, Namiq Quliyev, Qədir Hüseynov, Nicat Abbasov və Ülvi Bacaraninin daxil olduğu ikinci yığmamız 14 xalla 26-cı, Nail Bəşirli, Məmməd Muradlı, Vüqar Əsədli, Pərviz Qasımov və Abdulla Qədimbəylidən ibarət üçüncü komandamız isə 13 xalla 49-cu pillədə yer alıb.

Qadınların yarışında qalib adını 20 xalla Çin şahmatçıları qazanıblar. Hesabında 17 xal olan Polşa ikinci, Ukrayna isə üçüncü pillədə yer alıb. Zeynəb Məmmədyarova, Günay Məmmədzadə, Aydan Höccətova, Gülnar Məmmədova və Nərmin Kazımova ilə təmsil olunan Azərbaycanın əsas komandası yarışı 16 xalla 8-ci pillədə başa vurub. Nərmin Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, Ayan Allahverdiyeva və Aynur Kətanovanın daxil olduğu üçüncü komandamız 13 xalla 30-cu, Türkan Məmmədyarova, Nərgiz

Umudova, Xəyalə Abdulla, Ülviyyə Fətəliyeva və Nərmin Xələfovadan ibarət ikinci yığmamız isə 32-ci olub.

Bakı olimpiadası həm şahmatçılar, həm də nümayəndə heyətləri üçün yüksək şərait yaradılması, qonaqların xüsusi razılığı ilə yadda qaldı. Bu onu deməyə imkan verir ki, Azərbaycan beynəlxalq yarışların təşkilində dünya üçün nümunədir.

## Bölmə II

**Azərbaycan tarixini nəzərdən keçirsək, ən uğurlu dövrdür. Nəyə görə? Çünki xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Biz Azərbaycanı inamla idarə edirik. Azərbaycan vətəndaşları müstəqilliyin bəhrəsini görürlər. İdmanda, o cümlədən şahmatda bizim əsas uğurlarımız məhz müstəqillik dövrünə təsadüf edir.**

**İlham Əliyev,**
**Azərbaycan Respublikası Prezidenti**

Şahmat ədəbiyyatının sürətlə artması xeyli dərəcədə bu oyunun kütləviləşməsinə imkan yaradır. İnsan zəkasının yaradıcılıq məhsulu olan şahmat oyunu hələ qədim zamanlardan insanları düşündürməyə başlamışdır. Şahmat oyunu bu gün yalnız bir oyun kimi deyil, həm də bəşər mədəniyyətinin bir sahəsi kimi yüksək qiymətləndirilir.

Bildiyiniz kimi, 1996-cı ildən dünyanın hər yerində 20 iyul Beynəlxalq Şahmat Günü kimi qeyd olunur. Bu bayram əsası 1924-cü ildə qoyulmuş Beynəlxalq Şahmat Federasiyasının (FİDE) qərarı ilə keçirilir. Bütün rəsmi yarışlar, o cümlədən kişi və qadınlar arasında dünya çempionatları, kişi, qadın, tələbə və yeniyetmələrin komanda birincilikləri, Avropanın komanda birinciliyi, Avropa Çempionlar kuboku, Panamerikan fərdi yarışları FİDE-nin himayəsi altında keçirilir. FİDE 1950-ci ildən

kişilərə, 1976-cı ildən isə qadınlara beynəlxalq qrossmeyster adı verir. Azərbaycanda şahmat ən populyar idman növlərindən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2009-2014-cü illərdə şahmatın inkişafına dair Dövlət Proqramı təsdiq edilmişdir. Azərbaycanda şahmat ötən ilin 70-ci illərində inkişaf etməyə başlamışdır. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikada şahmat məktəbləri tikilməyə başlamış, gənclərin bu idman növünə marağı artmış, gənc və istedadlı şahmatçılar pleyadası yetişmişdir. Qeyd edək ki, 2009 cu il oktyabrın 30-da kişilərdən ibarət Azərbaycan yığması Serbiyanın Novı-Sad şəhərində keçirilən Avropa çempionatının qalibi olmuşdur. Komandaya qələbəni gərgin mübarizə şəraitində Daniel Stellvageni məğlubiyyətə uğratmış Vüqar Həşimov gətirmişdir. Nəticədə 15 xal toplayan Azərbaycan 1 xal Rusiyanı üstələyərək çempion titulunu qazanmışdır.

20 iyul Beynəlxalq Şahmat Gününün keçirilməsi ilə bağlı respublikamızda bir çox tədbir, yarışların keçirilməsi nəzərdə tutulmuşdur. Elə bu səbəbdən də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Beynəlxalq Şahmat Günü ilə bağlı sərgi təşkil olunur. Təşkil olunan sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, “20 iyul Beynəlxalq Şahmat Günü”, “Azərbaycanda şahmatın tarixi”, “Dünyanın parlaq zəka sahibləri, şahmatçılar”, “Planetin və Azərbaycanın ən güclü zəka sahibləri” və s. Sərgidə şahmat məktəbinə aid zəngin kitablar, dövrü mətbuatda çap olunmuş qəzət və jurnal materialları, dünya arenalarında uğur qazanmış şahmatçılarımızın fotoları, haqlarında olan materiallar öz əksini tapır. Sərgi müxtəlif başlıqlar altında keçirə bilər.

“Beynəlxalq Şahmat günü” adlı sərginin nümunəsini sizlər üçün veririk.

1.Başlıq

2. Kitabaların nümayişi
3. Foto sərgi
4. Görkəmli insanların şahmat haqqında söylədikləri
5. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası
6. Şeir parçası

Bir şah, bir vəzirdir, iki fil-nər,
İki at, iki top durur səfərbər.
Səkkiz piyada da ikinci səfdə,
Şaha keşiçkiçidir qabaq tərəfdə.
Altmış dörd xanadır oyun məclisi,
Bəzisi qaradır, ağdır bəzisi
Sakit gedə bilər şah xana-xana
İrəli, ya geri bütün dörd yana.
Vəzir həm çəp gedər, həm də düzünə
Açıqdır meydanda hər yan üzünə,
Fillərin yürüşü olar çəpəndaz.
Toplasa düz gedər, çəpinə vurmaz.
At iki xananı sıçrayar birdən,
Sağdan sola düşər qalxdığı yerdən.
Əgər qarşı gəlsə ağ qarailə,
Hər birisi dönər bir əzrayilə.
Piyada düz gedər tək addımla, bil,
Yetişsə düşmənə olar bil fitil.
Döyüşdə sağ qalıb çıxarsa başa,
Çevrilər vəzirə, topa-hər daşa.
Axırda meydanda şah yalqız qalsa,
Dövrəsini düşmən bürüyüb alsa,
Onda “mat” bil onu, son zamanıdır,
Əsirdir, dünyadan köçmək anıdır.

**M.F.Axundov   1864-cü il**

**Görkəmli insanların şahmat haqqında söylədikləri**

1. Biz güclü idman dövlətiyik. Azərbaycan tarixini nəzərdən keçirsək, ən uğurlu dövrdür. Nəyə görə? Çünki xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Biz Azərbaycanı inamla idarə edirik. Azərbaycan vətəndaşları müstəqilliyin bəhrəsini görürlər. İdmanda, o cümlədən şahmatda bizim əsas uğurlarımız məhz müstəqillik dövrünə təsadüf edir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

2. Şahmat zəif ruhlu adamlar üçün deyil. O, çətin sənətdir, böyük yaradıcı iş tələb edir.

Vilhelm Steynits

3. Şahmat oyunu sahəsindəki çoxlu tədqiqatlar hələ öz tam həllini tapmamışdır.

Emmanuil Lasker

4. .Şahmatçıların əksəriyyəti uduzmağı sevmir və bunu bir növ rüsvayçılıq hesab edir. Əgər təkmilləşmək, inkişaf etmək istəyirsənsə, öz məğlubiyyətlərinə bir dərs kimi bax.

Xose-Raul Kapablanka

5. Mənim üçün şahmat oyun yox, incəsənətdir.

Aleksandr Alyoxin

6. Şahmatı öz şəxsi bacarığın, təcrübən sahəsində öyrənməlisən. Şahmat dərsliklərini vərəqləmək bizə müstəqil olaraq düşünməyin, hər cür çətinliyi aradan qaldırmağın yolunu öyrədir.

Maks Eybe

7. Sovet ölkəsində olduğu kim, tarixdə heç bir ölkədə şahmatı belə ciddiyyətlə öyrənməmiş, ona belə maraq göstərməmiş, onu belə sonsuz həvəslə, ruh yüksəkliyi ilə oynamamışlar. Bizim üçün şahmat yaradıcı həyatın özüdür.

Mixail Botvinnik

8. Mənə elə gəlir ki, bizim zəmanəmizdə hər bir şahmatçı bu müdrik oyunun inkişafına çalışmalı, onu daim irəli aparmağı, şahmat sənətini ona zidd olan zərərli təzahürlərdən təmizləməyi bacarmalıdır.

Vasili Smıslov

9. Şahmatda müvəffəqiyyət qazanmaq üçün ilk növbədə onu sevmək və bir istedad lazımdır.

Mixail Tal

10. Məni şahmatda ən çox hələ öyrənilməmiş, kəşf olunmamış imkanların çoxluğu, yaratmaq prosesi cəlb edir.

Boris Spasski

11. Şahmatda məni hər şeydən şox səyahət etmək imkanı, pul və bir də şahmat mühiti daha çox maraqlandırır.

Robert Fişer

# Kitabların nümayişi












Azərbaycanda Şahmat Tarixi
https://drive.google.com/file/d/1gAJut9m8YX96DhbZPy__IGBjMyCUvLMa/view?usp=sharing
Şahmat birinci hisse
https://drive.google.com/file/d/1p21pkeYdE656S0ERmNq0ZLcoRBmnbE29/view?usp=sharing
Şahmat ikinci hisse
https://drive.google.com/file/d/1O7Tk1gLonFRXAVCR3AcVeYFgqcv5gG0T/view?usp=sharing
Şahmat oyunu dərsiliyi
https://drive.google.com/file/d/11NII7lsDzzh3d8cidO4Yt58to1gLf9yp/view?usp=sharing

21 iyul Beynəlxalq Şahmat günü münasibətilə təşkil olunan tədbirlərdən biri də nağıl saatıdır. "Şahlar və Şahmat " adlı nağıl saatı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının nağıl otağında keçirilir. Tədbirdə məktəb şagirdləri iştirak edir. Kitabxanaçı şahmat və şahmatçılar haqqında söhbət açır. Dostlar, şahmat müxtəlif peşə adamlarının qəlbini fəth etmişdir. Əgər biz arxivləri, kitabxanalrı, ayrı-ayrı kolleksiyaları araşdırsaq müxtəlif əsrlərdə yaşayan və şahmatla maraqlanan adamlar haqqında çoxlu məlumatlar taparıq. Bildiyiniz kimi, şahmat oyununda tez-tez şahlarla, vəzirlərlə rastlaşmalı oluruq. Bunu nəzərə alaraq gəlin biz söhbətimizi elə şahlardan, krallardan, bir sözlə taxt-tac sahiblərindən başlayaq. Deyilənə görə VIII-IX əsrlərdə yaşamış fransız kralı Böyük Karl şahmatın vurğunu olmuşdur. Onun həmvətəni kral IX Lüdovik də şahmatı çox sevərmiş. Parisdəki muzeylərin birində Lüdovikə məxsus ustalıqla düzəldilmiş şahmat komplekti vardır.

İspan kralı X Alfons (XIII əsr) şahmat tarixinə həmişəlik daxil olmuşdur. O, nəinki ehtiraslı şahmatçı olmuş, hətta bu oyun haqqında kitab da yazmışdır. Alfons görkəmli ərəb şahmatçılarını tez-tez öz sarayına dəvət edərdi. XIV əsrdə

yaşamış məşhur monqol hökmdarı Teymurləng də böyük şahmat həvəskarı olmuşdur. Teymurləng cəngavərlərə layiq iki əsas xüsusiyyəti üstün tutardı: ovçuluğu və şahmat oyununu. Bir dəfə Teymurləng şah xanasındakı topla, rəqibini mat edərək gözəl qələbə qazandı. Elə bu vaxt qasidlər xəbər gətirdilər ki, onun oğlu olmuş və Sihon çayı üzərində salınan şəhərin tikintisi qurtarmışdır. Teymurləng bu xoş hadisələri əbədiləşdirmək arzusu ilə oğlunun adını Şahruh, yeni şəhərə isə Şahruhiyyə adı verir. Belə bir rəvayət yayılmışdır ki, rus çarı İvan Qroznı guya şahmat oynayan zaman ölmüşdür. Çarın həyatının son dəqiqələri haqqında yayılan müxtəlif rəvayətlərdən belə məlum olur ki, İvan Qroznı özünü çox pis hiss etdiyi zaman şahmat taxtası gətirməyi əmr edir. O, daşları düzməyə başlayır, lakin şahı taxta üzərinə qoya bilmir. Elə bu an xəstəlik onu sarsıdır...

Çar I Pyotr hələ kiçik yaşlarından şahmat oynamağa başlamış və ömrünün sonuna qədər bu oyundan əl çəkməmişdir.

İsveç kralı XII Karl, Türkiyə üzərinə hərbi yürüş zamanı öz ordusu ilə mühasirəyə düşməsinə baxmayaraq vaxtını şahmatla keçirərdi. Bir dəfə o, yenə də öz generalı ilə mühasirə edilmiş qalada şahmat oynayırdı. Növbəti oyunların birində o, rəqibini artıq üçüncü gedişdə mat etməli idi. Elə bu an türk əsgərlərinin atdığı güllə pəncərənin şüşəsini sındırıb, şahmat taxtası üzərindəki at fiqurunu məhv edir. Karl yoxa çıxmış atın yerinə başqasını qoymaq istəyirdi ki, bunun artıq iş olduğunu gördü. Çünki rəqibi onsuz da dördüncü gedişdə yenə mat olacaqdı. O, qələbəni yenicə elan etmək istəyirdi ki, ikinci türk gülləsi yenə pəncərədən keçib, bu dəfə taxta üzərindəki piyadanı sıradan çıxartdı. Lakin bu da kralı məyus etmədi. O, bir dəqiqə fikirləşdikdən sonra generalı beşinci gedişdə mat etdi.

II Yekaterina şahmatçı kimi bir çox ədəbi-bədii əsərlərin, kino-filmlərin qəhrəmanı olmuşdur. Yekaterinanın hökmdarlığı dövründə şahmat, Rusiyada çox geniş yayılmış və kütləvi bir şəkil almışdı. Yekaterina oğlu Pavelin tərbiyəçilərinə əmr etmişdi ki, ona şahmat oyununu öyrətsinlər. Yekaterinanın

ölümündən sonra Pavel anası üçün matəm əlaməti olaraq bütün qapılara, evlərin pəncərələrinə, küçə fanarlarına şahmat taxtası formasında qara və ağ rənglə boyaq çəkdirmişdi.

Napoleon da şahmat oynamışdır. O, həmişə cəsarətlə oynayar, qeyri-adi gedişlər axtarar və oyun zamanı bərk həyəcanlanardı. Uduzduqda əsəbləşər, taxtanı çevirər, daşları tullardı. Napoleon şöhrətinin ən uca zirvəsində olarkən şahmatı atmış və bir müddət dama oyununa başlamışdır. Guya şahmat, vaxtı çox alır. Lakin Yelena adasında sürgündə olduğu illərdə o, yenə də şahmat oynamışdır. 1933-cü ildə Aysterlits şəhərində Napoleondan qalmış əşyaların sərgisi təşkil edilmişdi. Bu sərgidə nümayiş etdirilən eksponatlar içərisində fil sümüyündən düzəldilmiş və Napoleona məxsus olan şahmat daşları da nümayiş etdirilirdi. Bunları onun dostları düzəltmiş və Yelena adasına göndərmişdilər. Lakin Napoleon bilmirdi ki, bu daşların bəzilərinin içərisində onun adadan qaçması üçün planlar çəkilib qoyulmuşdur. Bu hədiyyəni Napoleona inanılmış zabitlərdən biri çatdırılmalı idi. Lakin gəmi artıq yolda ikən zabit qəflətən öldü. Hədiyyəni isə bu sirdən xəbəri olmayan bir başqa adam Napoleona çatdırdı. Şahmat taxtası ömrünün sonuna kimi, Napoleonda olmuş, ölümündən sonra isə oğluna verilməsi vəsiyyət edilmişdir. Sonralar taxta neçə-neçə adamın əlinə düşmüş, lakin onun sirrindən heç kəsin xəbəri olmamışdır.

Əziz uşaqlar, şahmat həqiqətən sirli bir aləm, möcüzələr dünyasıdır. Bu oyuna olan həvəsinizi nəzərə alaraq, sizlərə daha bir maraqlı söhbəti təqdim edirik.

Bir dəfə beynəlxalq yarışda qazandığı qələbə münasibətilə Steynisi təbrik etmək üçün iki nəfər ingiltərəli onun evinə gəlir. Söhbət əsnasında həmin şəxslərdən biri digərinə deyir:

-Kasıb adamın gərək çox uşağı olmasın.

-Belə uşaqlar həm də ağıldan zəif inkişaf edirlər,-deyə o birisi əlavə edir.

-Mənim atam,-deyə Steynits söhbətə qoşulur,-çox kasıb idi. Özü də 13 uşağı vardı. Mən, şahmat üzrə dünya çempionu Vilhelm Steynits ailəmizdə on üçüncü uşaq olmuşam.
Bunu eşidən qonaqlar dedikləri sözə görə bərk xəcalət çəkiblər.
Vilhelm Steynits 1836-cı ildə Praqada anadan olmuşdur. Şahmat həvəskarları onu ilk dəfə 1862-ci ildə İngiltərənin paytaxtı Londonda keçirilən beynəlxalq turnirdən sonra tanımışlar. 1886-cı ildə B.Steynits ilə İ.Sukertort arasında matç keçirildi. Bu, rəsmi olaraq dünya birinciliyi uğrunda yarışların başlanğıcı oldu. Həmin yarışda "Şahmat kralı" adına ilk dəfə Vilhelm Steynits layiq görüldü. O vaxt onun əlli yaşı vardı.
Steynits çox kasıb idi. Hətta dünya çempionu adını aldıqdan sonra belə o, maddi çətinliklərdən qurtula bilməmişdir.
Belə bir əhvalat danışırlar ki, bir dəfə Steynits London kafelərinin birində özünə şahmat oynayan daimi bir rəqib tapdı. Məsələ burasında idi ki, oyunçu məğlub olduqda qalib pul verməli idi. Oyunun şərtinə görə Steynits hər dəfə rəqibinə bir at fiquru artıq verirdi. Buna baxmayaraq, dünya çempionu həmişə qalib gəlirdi. Bir dəfə çempionun dostlarından biri dedi ki, əgər belə getsə, o, öz rəqibini itirə bilər. Bu məsləhət Steynits tərəfindən bəyənildi və o, növbəti oyunların birində bilə-bilə öz vəzirini zərbə altına qoydu. Rəqibi cəld vəziri götürdü. Elə həmin anda da Steynits özünün təslim olduğunu bildirdi. Xoşbəxt qalib stolun arxasından sıçradı və sevincindən qışqıra-qışqıra dedi:
-Mən dünya çempionunu məğlub etdim!

Bu sözlərlə o küçəyə qaçdı və bundan sonra bir daha kafedə görünmədi.

Steynits 8 il dünya çempionu adını özündə saxladı. İki dəfə o, bu adı Rusiyanın məşhur şahmatçısı M.Çiqorinlə görüşdə müdafiə etdi. Ancaq 1894-cü ildə artıq qocalmaqda olan 58 yaşlı çempion bu adı başqasına gənc Emmanuil Laskerə verməli oldu.

Vilhelm Steynits 1900-cü ildə vəfat etmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Beynəlxalq Şahmat günü ilə bağlı keçirilən tədbirlərdən biri də "Şahmat zehnin gimtastikasıdır" adlı söhbətdir.

Yəqin ki, şahmatla maraqlanan hər məktəbli, şahmatçı dünya çempionları V.Steynits, E.Lasker, X.P.Kanablanka, A.Alyoxin, M.Eyve, M.Botvinnik, V.Smıslov, M.Fişer, M. Tal, B.Spasski, R .Fişer vəs. adları yaxşı tanışdır. Öz idman həyatlarında bu görkəmli şahmatçılar bir sıra parlaq oyunlar nümayiş etdirmişlər. Bu oyunların əksəriyyəti dünya şahmat tarixinin qızıl fonduna daxil olmuşlar. Söhbətə Azərbaycan şahmatçıları, şahmat məktəbinin tələbələri, orta və ali məktəb tələbələri və bir çox başqa qonaqlar dəvət olunur. Kitabxanaçı söhbətə belə başlayır: Arxeoloji qazıntılar və tarixi araşdırmalardan məlum olmuşdur ki, şahmat Azərbaycanda hələ lap qədim zamanlardan mövcud imiş. XII əsr tarixçisi Ravandinə görə şahmat Azərbaycanda VI-VII əsrlərdə geniş yayılmışdır.

Ərəf xilafətinin Azərbaycana yürüşündən sonra Gəncə, Naxçıvan, Şamaxı, Ərdəbil, Təbriz şəhərləri tərəqqiyə doğru sürətlə irəliləməyə başladı. Bu şəhərlərdə elmin, incəsənətin, iqtisadiyyatın inkişafı, formalaşması ilə yanaşı dama, şahmat, nərd və s. kimi idman oyunları da geniş populyarlıq qazandı. Aylar, illər dolandıqca artıq o dövrün ustad sənətkarları, "çempionlar" meydana gəlməyə başladı. Belə ustalardan biri və bəlkə də birincisi, o zaman Azərbaycan, eləcə də Yaxın Şərq

ədəbi mühitində məşhur olmuş Cəlaləddin Naxçıvani olmuşdur.



Dahi şairlərimizdən Məhsəti Gəncəvi, Xaqani, Nizami, Füzuli, Nəsimi və b. şahmatla yaxından maraqlanmış, bu oyunun sirlərini, incəliklərini böyük həvəslə əxz etmiş, sevə-sevə oynamışlar. Qeyd etdiyimiz şairlərimizin əsərlərindən məlum olur ki, Azərbaycanda cəmiyyətdə tutduğu mənşə durumundan asılı olmayaraq böyükdən-kiçiyə hamı bu oyuna böyük həvəs və maraq göstərirmişdir.

Orta əsrlər bioqrafik xronikasından bəlli olur ki, elm, bilik, savad sahəsində xüsusi yer tutmuş şəxslərin incəsənətin bir sıra sahələri ilə yanaşı, şahmatı da bilmələri vacib şərtlərdən sayılırmış. Böyük Azərbaycan miniatürçüsü və şairi Sadiq bəy Əfşar "Məcmuəyi ül avaz" təzkirəsində qeyd edir ki, ustadı və müəllimi Müzəffər Əli misilsiz istedada malik şahmat ustası imiş. O qeyri-adi ustalığını sübuta yetirmək üçün şahmatı rəqibləri ilə gözübağlı oynamış və onlara qalib gəlmişdir. Təbii ki, gözübağlı oyun nümayiş etdirmək ustaddan xüsusi istedad, zehin və yaddaş tələb edir.

"Azərbaycanın görkəmli adamları" kitabında İran alimi Məhəmmədəli Tərbiyat orta əsrlər tarixindən olduqca bir sıra maraqlı sitatlar gətirir. O qeyd edir ki, XVI əsr şairi Abdi Şirvani gözəl, misilsiz söz ustası, dahi şair olsa da, şahmatda tez-tez

məğlub olurdu. Lakin onun  müasiri, alim-şair Çələbi bəy isə elm sahəsində fitri istedadı ilə yanaşı, şahmatda da məğlubedilməz ustad olmuşdur.

Xoca Əli Təbrizi əl Şətrənçi XIV əsrin sonu XV əsrin əvvəlində yaşayıb-yaratmış məşhur Azərbaycan şahmatçısı olmuşdur. O, Təbriz şəhərində dünyaya göz açmışdır. Təəssüf ki, Əli Təbrizinin doğulduğu  və öldüyü illər məlum deyil. XVI əsr tarixçisi Xandəmir öz əsərlərində Xoca Əli Təbrizi haqqında müfəssəl məlumat verir. Tarixçinin qeyd etdiyinə görə Əli Təbrizi yenilməz, dahi sərkərdə Teymurləng sarayının baş şahmatçısı olmuş, görüşdüyü bütün dünya şöhrətli şahmat ustalarını şərtsiz, şəksiz məğlub edərək oyunda misilsiz möcüzələr göstərmişdir. Deyilənlərə görə, Xoca Əli Təbrizi eyni vaxtda ayrı-ayrı yerlərdə yerləşdirilmiş dörd-beş rəqiblə şifahi, yəni, şahmat taxtasının üzünü görmədən yalnız vasitəçilərin köməyi ilə oyun nümayiş etdirərək qələbə çalarmış. Xoca Əli fonomen yaddaşa malik bir şəxs idi. O, Qurani-Kərimi və bir sıra poetik məcmuələri əzbər bilirdi. Əli Təbrizi "Əl Şətrənçi" təxəllüsünü Səmərqənddə Teymurləngin sarayına düşdükdən sonra qəbul etmişdi. Yeri gəlmişkən qeyd edək ki, böyük sərkərdə və dövlət xadimi Teymurləng şahmatı ürəkdən sevirmiş, bu oyunun inkişafı üçün xeyli iş görmüşdü.

Görkəmli şahmat tarixçisi Q.Morrey 1913-cü ildə çapdan çıxmış "Şahmat tarixi" adlı kitabında yazırdı ki, "Teymurləng o dövrün məşhur çempionları  sayılan iki şahmat ustası ilə "tərəf-müqabili" olurdu. Bunlardan biri Əli Şətrənçi, ikincisi isə Ələddin Təbrizi idi".

Əli Şətrənçi şahmat tapşırıqlarının hazırlanması və həllində, oyunun sirlərini, incəliklərini əxz etməkdə Teymura kömək edir, onu bir növ növbəti oyuna hazırlayırdı. Tarixçi Xandəmirin

qeyd etdiyinə görə, Əli Təbrizi sarayda “Şahmatbaz dəstgahı” adlı məclis təşkil edib, burda mütəmadi olaraq turnirlər keçirilməsinin əsasını qoydu. Bu məclisə Xoca Yusif Nəzər, ustad Şəmsəddin Qəzəruni və o dövrün başqa məşhur şahmatçıları daxil idi. Bu, tarixdə təsis olunmuş ilk şahmat klubu idi desək, yəqin yanılmarıq.

Bizim dövrümüzdə dahi Azərbaycan şahmatçısı Xoca Əli Təbrizi Əl Şətrənçi haqqında bütün məlumatları toplayıb, kitab şəklində çap etdirən alim Şəhriyar Quliyev olmuşdur. Xoca Əli Təbrizinin şahmat haqqında elmi əsər yazması məlumatını da ilk dəfə o aşkar etmişdir.

F. Köçərli adına Respublika Uşaq Kitabxansında Beynəlxalq Şahmat günü ilə əlaqədar keçirilən tədbirlərdən biri də viktorinadır. Viktorina böyük yaş qrup uşaqlar arasında nəzərdə tutulub. Viktorina iki qrup arasında keçirilir. Kitabxanaçı bu qrupa adlar verir. 1-ci qrup vikrorina iştirakçıları ilə 2-ci qrup viktorina iştirakçıları yarışır. Qalib olan komanda sonda kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Viktorinanın suallarını sizlər üçün təqdim edirik.

**1. Sual?-**Şahmat sözünün mənası nədir ?

**Cavab:** “Şah öldü” deməkdir. Şahmat-iki oyunçu arasında taxta lövhə üzərində oynanan əyləncəli və rəqabətli, strateji oyundur. Bəzən bu oyunu daha qədim növlərindən və Çin şahmatı kimi əlaqəli oyunlardan fərqləndirmək üçün “Qərb şahmatı” və ya “Beynəlxalq şahmat” adlandırırlar.

**2. Sual?-**Şahmat oyunu nə vaxt , harada yaranıb?

**Cavab:** Şahmat hind oyunudur, tarixi V əsrdən o yana gedib çıxır.

**3. Sual?-**Şərq aləmində ilk şahmatı bilən qadın kimdir?

**Cavab:** Şahmat aləmində ilk şahmatı bilən qadın Məhsəti Gəncəvidir.

**4. Sual?-** Şahmat lövhəsində sıra düzülüşü necədir?

**Cavab:** 8 sıra 8 sütün olmaqla sıra ilə düzülmüş 64 ağ və qara kvadratdan ibarət kvadrat şahmat lövhəsində oynanır.

**5. Sual?-** Şahmat oyununda oyunçu oyunu necə idarə edir?

**Cavab:** Şahmat oyununun fiqurları ağ və qara dəstələrə bölünür. Hər dəst 16 fiqurdan ibarətdir: 1 şah, 1 vəzir, 2 top, 2 at, 2 fil və 8 piyada. Dəstlər sırasıyla "Ağlar" və "Qaralar" adlanır. Oyun 8 sütüun (ağların nəzərindən soldan-sağa "a"dan "h"a qədər hərflərlə adlandırılıb) və 8 sətirdən (ağlara nəzərən 1-dən 8-ə qədər rəqəmlərlə adlandırılıb) ibarət kvadrat lövhə üzərində oynanır.

**6. Sual?-** Şahmat oyununda oyunun məqsədi nədir?

**Cavab:** Oyunun məqsədi rəqibin şahını mat etməkdir.

**7. Sual?-**İlk şahmat turniri neçənci əsrdə təşkil olunub?

**Cavab:** İlk şahmat turniri XIX əsrdə təşkil olunmuşdur.

**8. Sual?-**Şahmatda Şahın gedişi?

**Cavab:** Şah - əsas şahmat fiquru sayılsada güclü fiqur deyil. Şahmat partiyasının məqsədi - rəqibin şahına mat elan eləməkdir.

Şahın gedişi.

Şah (qalaqurmadan başqa) öz xanasından rəqib fiqurunun zərbəsi altında olmayan başqa qarışıq xanaya hərəkət edir.

Qalaqurma - şahmatda xüsusi gedişdir, şahın üfüqi istiqamətdə topa doğru öz rəngində 2 xana hərəkət etməsi və topların şaha qonşu olan digər xanaya yerdəyişməsi ilə bitir. Bu gediş qısa qalaqurma adlanır. Tərəflərdən hər biri partiya ərzində yalnız bir qalaqurma edə bilər.

Qısa qalaqurma

Uzun qalaqurma

**9.Sual?- Şahmatda Vəzirin gedişi?**

**Cavab:** Vəzir ən güclü şahmat fiqurudur. Hesab olunur ki, vəzirin maddi dəyəri təxminən 9 piyadaya bərabərdir.

Müasir şahmatda vəzir şaquli, üfüqi və diaqonal istiqamətlərdə hərəkət edə bilir (o şərtlə ki, onun yolunda fiqur olmasın). Mərkəzi xanaların birində yerləşərək o eyni vaxtda 27 xanaya qədər hücum edə bilər, lövhənin küncündən isə 21 xanaya qədər.

**10. Sual?-Şahmatda topun gedişi?**

**Cavab:** Top - şahmat fiquru. O təqribi 5 piyada gücündədir. Top şaquli və üfüqi istiqamətdə hər cür hərəkət edə bilir, bir şərtlə ki, onun yolunda fiqur olmasın. Top partiyanın əvvəlində a1 və h1 mövqedə olur (ağ toplar), a8 və h8 (qara toplar).

Baxmayaraq ki, onlar debütdə inkişaf etmirlər toplar qalaqurmada iştirak edə bilərlər, beləliklə onlar mittelşpildə şaquli xanalara nəzarət edirlər. Harada olmağından asılı olmayaraq top əgər onun yolunda fiqur dayanmayıbsa o hər zaman 14 xanaya nəzarət edir.

**11. Sual?-Şahmatda Filin gedişi?**

**Cavab:** Fil - şahmat fiquru. Oyunçular oyunu iki fil ilə başlayırlar. Partiyanın əvvəlində fillər c1 və f1 xanalarında qərarlaşırlar (ağ fillər) və c8 və f8 (qara fillər). Fil hər hansı bir diaqonal istiqamət üzrə hərəkət edə bilir bir şərtlə ki onun yolunda fiqur yoxdur. Hər bir fil yalnız ya ağ xana yada ki qara xanalarla hərəkət edə bilirlər, buna görə də filləri ağxanalı və qaraxanalı adlandırırlar.

**12. Sual?-Şahmatda Atin gedişi?**

**Cavab:** At - şahmat fiquru, partiyanın əvvəlində b1, g1 ( ağ atlar ) və b8, a8 ( qara atlar ) xanalarında yerləşirlər. At lovhədə istənilən xanaya gediş edə bilir. Atın vacib fərqli cəhəti onun hər bir gedişdə xananın rənginin deyişməsi ilə nəticələnməsidir. At yeganə fiqurdur ki, hansı ki başqa fiqurlardan atlana bilir, at şaha hücum elan etdikdə o heç bir fiqurla müdafiə oluna bilmir.

Dəyərinə görə at təxminən bir filə və üç piyadaya bərabərdir. Üç at təxminən bir vəzirə və ya iki topa bərabərdir. Atın dəyəri bağlı vəziyyətlərdə artır. Bir at rəqibin tək qalan şahını mat edə bilməz, amma bir at və bir fil tək qalan şahı mat edə bilərlər. İki ata və şaha mat etmək o halda mümkün olar ki, müdafiə olunan tərəf ciddi səhv edərsə.
Atın vacib fərqli cəhəti onun hər bir gedişdə xananın rənginin deyişməsi ilə nəticələnməsidir. At yeganə fiqurdur ki, hansı ki başqa fiqurlardan atlana bilir, at şaha hücum elan etdikdə o heç bir fiqurla müdafiə oluna bilmir.

**13. Sual?-Şahmatda Piyadanın gedişi?**

**Cavab:** Piyada - şahmatda əsas ölçü vahidi hesab olunur ( şahmatda onu bir fiqur adlandırmağı qəbul etmirlər ) . Digər fiqurların dəyəri piyada ekvivalenti ilə ölçülür ( yüngül fiqur təqribən üç piyada ekvivalentindədir , top isə beşə ) . F.Filidorun fikrincə piyada - " şahmat partiyasının ürəyidir " . Endşpildə piyadanın rolu xeyli artır .
Şahmat oyununda piyada hər zaman düz və irəliyə doğru hərəkət edir .
Piyadaların bir dəfə irəliyə getdikdən sonra geri dönməsi mümkün deyil .
Bir piyada başlanğıc gedişindən başqa hər gedişində yalnız bir dama irəliyə hərəkət edə bilir .
Başlanğıc gedişdə heç oynanılmamış piyada iki dama irəli hərəkət edə bilir .
Piyada düz və irəliyə doğru hərəkət etsədə rəqib oyunçunun fiqurlarlarını çarpaz olaraq oyundan kənarlaşdırır .
Bütün lövhəni keçərək lövhənin son sırasına çatan piyada oyunçunun istəyinə gorə öz rəngindəki vəzir, top, fil ya da ata dəyişdirə bilir, dəyişdirilmiş piyada oyundan çıxarılır. Digər oyunçu gediş etməmişdən əvvəl piyadanın çıxarıldığı xanaya dəyişdirildiyi fiqur yerləşdirilir.

**14. Sual?-**Nəzəriyyə görə şahmat oyunu neçə hissəyə bölünür?

**Cavab:**Nəzəriyyə əsasən şahmat oyunu üç hissəyə bölünür: debüt, mittelşpil və endşpil.

Debüt (fransız dilindən - başlanğıc) - şahmat partiyasının başlanğıc mərhələsi.

Debütün əsas prinsipləri:

- fiqurların tez inkişaf etdirmək
- mərkəzə nəzarət
- şahın təhlükəsizliyini təmin etmək
- rəqibin planlarına əks-təsir etmək
- mitteşpil və endşpil

Mittelşpil ( alman dilindən - oyunun ortası) - şahmat partiyasında debütdən sonra gələn mərhələ, hansı ki, bu mərhələdə hücum və müdafiə manevrları edllir.

Endşpil (alman dilindən - oyunun sonu ) - şahmat partiyasının sonuncu hissəsi. Endşpildə şah fiquru aktiv fiqur hesab olunur. Bir qayda olaraq şahın mat olmaq təhlükəsi yoxdursa bu fiqur öz mövqeyini tərk edərək digər fiqurlarla bərabər rəqibin fiqur və piyadalarına hücum edir. Endşpilin strateji hədəfi - piyadalardan birini aparıb vəzir etməkdir. Əgər oyunun ortasında tərəflərdən birinin 1 piyada üstün olması adətən həlledici rol oynamırsa, amma endşpildə bir çox vəziyyətlərdə qələbə qazanmaq üçün kifayət edir.

Şahmat lövhəsində mərkəz d4-e5-d5-e5 xanaları hesab olunur. Təcrübə göstərir ki, mərkəzə nəzarəti əldə eləmiş oyuncu qismən oyunda üstünlüyü qazanmış hesab olunur.

Viktorinanın sonunda qaliblər Azərbaycan şahmatçıları ilə xatirə şəkli çəkdirirlər.

20 iyul Beynəlxalq Şahmat Günü münasibətilə keçirilən tədbirlərdən biri də 2016-cı ildə Bakıda keçirilən 42-ci Ümumdünya Şahmat Olimpiadasının keçirilməsi ilə bağlı dəyirmi stol arxasında keçirilən müzakirədir. Tədbirə bir çox

idman yarışlarında öz sözünü demiş idmançılar, olimpiya çempionları, Şahmat üzrə mütəxəssislər, Şahmat məktəbinin müəllim və tələbə heyəti, bir sözlə şahmatsevərlər dəvət olunur. Dəvət olunan qonaqlar tədbiri giriş sözü ilə belə açırlar:
"Dünyanın parlaq zəka sahibləri Bakıda " adlı dəyirmi stola xoş gəlmisiniz. Bildiyiniz kimi, 2016-cı il sentyabrın 1-dən 14-dək keçirilən Ümumdünya Şahmat Olimpiadasında ölkəmiz daha bir böyük idman yarışına ev sahibliyi etdi. Bakının ən gözəl idman saraylarından biri olan Milli Gimnastika Arenasında 42-ci Ümumdünya Şahmat Olimpiadasının açılış mərasimi keçirildi. Bütün şahmat aləmi iki həftə ərzində planetin ən parlaq zəka sahiblərindən ibarət komandaların gərgin mübarizəsini diqqət mərkəzində saxladı. Azərbaycan olimpiadanı keçirmək hüququnu 2012-ci ildə qazanmışdır. Bu barədə qərar Beynəlxalq Şahmat Fedarasiyasının (FİDE) həmin il İstanbulda keçirilmiş baş məclisdə qəbul olunmuşdur. Ölkəmizə belə yüksək etimad göstərilməsi təsadüfi olmamışdır. Azərbaycanda şahmatın ən yaxşı ənənələri vardır və onun inkişafı dövlətin daimi qayğısı ilə yüksəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də 42-ci Ümumdünya Şahmat Olimpiadasının iştirakçılarına 30 avqust 2016-cı il tarixli məktubunda Azərbaycanda şahmatın inkişafını yüksək qiymətləndirmişdir: "Son illərdə şahmat üzrə dünya və Avropa miqyaslı yüksək statusa malik yarışların ölkəmizin paytaxtı ilə yanaşı bölgələrində də baş tutması Azərbaycanın dünyanın şahmat mərkəzlərindən birinə çevrilməsi yolunda atılmış mühüm addımdır. İnanıram ki, bu Şahmat Olimpiadası da ölkəmizdə bu intelektual oyunun təbliğinə öz layiqli töhfəsini verəcəkdir. Bir çox tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizin regionun siyasi, iqtisadi, və mədəni mərkəzinə çevrildiyini göstərir. Bakı

şəhərinin mühüm beynəlxalq tədbirlərə evsahibliyi etməsi artıq ənənə halını alıb. Paytaxtımızda beynəlxalq tədbirlərin uğurla keçirilməsi ölkəmizin dünya miqyasında nüfuzunun yüksəldiyini bir daha sübuta yetirir. Bakının ev sahibliyi etdiyi 42-ci Ümumdünya Şahmat Olimpiadası indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi tarixdə qaldı. Bu mötəbər yarışda 176 ölkədən 181 kişi və 142 qadın komandası mübarizə aparırdı. Bu da iştirakçı ölkələrin sayına görə rekord göstərici idi. Azərbaycan bu Olimpiadada üç kişi və üç qadın komandası ilə təmsil olunub. Beləliklə, son bir neçə illərdə ölkəmizdə keçirilən Avropa oyunları, "Formula"-1, "Formula"-2 və bir çox yarışları böyük müvəffəqiyyətlə keçirən Bakı Ümumdünya şahmat Olimpiadasını da yüksək müvəfəqiyyətlə keçirdi. Dünyanın 180-ə qədər ölkəsinin kişilərdən və qadınlardan ibarət komandaları, planetin bütün şahmat elitası Azərbaycan paytaxtının qonağı oldu.

"Biz öz yolumuzla gedirik. İdman uğurları ölkəmizin uğurlarının tərkib hissəsidir. Ancaq güclü dövlətlərdə güclü idman var"- deyən Prezident İlham Əliyev Azərbaycanın iqtisadi cəhətdən qüdrətləndikcə idmanın da hərtərəfli inkişafına lazımi vəsaitin artıralacağını bildirib. Bir sözlə ümidvarıq ki, gələn Şahmat Olimpiadası yarışlarında da ölkəmiz yüksək etimad qazanacaq."

F.Köçərli adına Respublika uşaq Kitabxanasında Beynəlxalq Şahmat Günü ilə əlaqədar keçirilən tədbirlərdən biri də "Azərbaycan şahmatının baniləri" adlı görüşdür. Bu tədbir oxucuların çox sevdiyi tədbirlərdən biridir. Ona görə ki, tədbirə qatılan uşaqlar pərəstiş etdikləri Azərbaycan şahmatçılarını, Dünya çempionu adı qazanmış idmançılarımızı bu görüşdə görə biləcək, onlarla yaxından tanış ola biləcəklər. Tədbirdə bir çox

ziyalılar, idman ustaları, şagird və tələbələr iştirak edir. Tədbiri təşkil edən kitabxanaçı çıxışına belə başlayır:

Dünyanın ən qədim və ən maraqlı oyunlarından sayılan şahmat hər yerdə olduğu kimi Azərbaycanda da geniş vüsət almışdır. XX əsrin 40-cı illərindən başlayaraq ölkəmizdə şahmat böyük sürətlə yayılmağa başladı. Gənclərdən S.Xəlilbəyli, A.Zeynallı, V.Bağırov, R.Əmirxanov, Ç.Sultanov, O.Pavlenko, Ə.Şaxdaxtinski, Z.Vəlibəyov və başqaları müxtəlif yarışlarda iştirak edərək, istər Respublika daxilində, istərsə də Beynəlxalq aləmdə yüksək nəticələr əldə etmişlər. 1980-2000-ci illərdə Respublikamızda şahmat getdikcə daha böyük vüsət almış və Beynəlxalq aləmdə tanınmış qrossmeysterlər və Beynəlxalq ustalar yetişmişdir. Bunlardan: E.Məhərrəmov, A.Hüseynov, S.Quliyev, A.Mirzəyev, R.Bağırov, T.Rəcəbov, V.Həşimov, C.Ağamalıyev, Ş.Məmmədyarov, Q.Hüseynov, E.Səfərli, R.Məmmədov; Qadın qrossmeysterlərdən A.Sofiyeva, F.Vəlixanlı, İ.Qədimova, Z.Məmmədyarovanı; Beynəlxalq ustalardan isə F.Sideifzadə, İ.Bacarani, A.Allahverdiyev, R.Qasımov, R.Hacılı, R.İbrahimov, R.Babayev, F.Abbasov, N.Məmmədov, M.Zülfüqarlı, L.Quliyevi və başqalarını göstərmək olar. Azərbaycanda bu müdrik oyunun inkişafında, onlarla Beynəlxalq usta və qrossmeysterlərin yetişdirilməsində görkəmli dövlət xadimi, ümumilli liderimiz, böyük şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin tarixi xidmətlərini və gənclərə göstərdiyi atalıq qayğısını xüsusilə qeyd etmək lazımdır.

Həmçinin tədbirdə şahmatçılarımızın Respublikamızdan xaricdə Beynəlxalq şahmat yarışlarında iştirakının təmin olunmasında və yüksək nailiyyətlər əldə etməsində onlara yaxından kömək göstərən Təhsil Nazirliyinin, Gənclər və İdman

Nazirliyinin, Azərbaycan Şahmat Fedorasiyasının əməyini də yüksək qiymətləndirildi.



İndi isə gəlin sizinlə birlikdə Avropa çempionu Teymur Rəcəbov haqqında hazırlanmış slayd ilə ilə tanış olaq.

1987-ci il təvəllüdlü T.Rəcəbov ən gənc beynəlxalq dərəcəli qrossmeyster adını 14 yaşında alıb. O, beş yaşından şahmat oynayır. Şahmatda ilk nailiyyətini isə doqquz yaşında qazanıb. 1996-cı ildə yaşı 10 – dək olan oğlanların yarışında Avropa və dünya birinciliyində iştirak edib, qitə və dünya çempionu adlarını özündə saxlayıb. 1998-ci ildə 12-dək olan oğlanlar arasında Avropa və dünya çempionu olub. 1999-cu ildə yaşı 18-dək olan yeniyetmələr arasında Avropa çempionatında ən yüksək pilləyə qalxıb. 2000-ci ildə Kasparov kubokunun Qran-pri mükafatını alıb. Elə həmin il birinci, 2001-ci ildə əvvəlcə ikinci beynəlxalq qrossmeyster normasını yerinə yetirib, sonra isə üçüncü beynəlxalq qrossmeyster normasını yerinə yetirərək şahmat tarixində ən gənc qrossmeyster olub. 2002-ci ildə dünyanın yüz ən yaxşı şahmatçısı sırasına daxil edilib. Bu nailiyyətlərindən sonra Teymur mərhum prezident Heydər Əliyevlə də görüşüb. Atası neft mühəndisi, anası isə ingilis dili müəllimi olan Teymur müsahibələrinin birində bildirib ki, 3 yaşından şahmat öyrənib və ilk məşqçisi elə atası Boris olub: "3-5 yaşımdan şahmat oynayıram. Şahmat karyeramda atamın rolu böyük olub. Elə ilk məşqçim də atamdır. Şahmat sakit oyundur. Məsələn, futbolda hər şey açıq-aşkardır. Emosiya insanları idarə edir. Şahmatda isə gizlilik olmalıdır. Bir şeyi açıq etmək məğlubiyyətdir". Bundan sonrakı uğurları sırasında dünya çempionunu məğlub etmək də var. Teymur 16 yaşında ikən dünya çempionu və dahi Kasparovu qara fiqurlarla oynayaraq udub. Bu iki dahinin oyunu

həmin il "Ən yaxşı oyun" mükafatı alıb. Teymur bu oyundakı qalibiyyəti ilə dünya birincisini udan ən gənc şahmatçı titulunu özünə götürüb. Bir il sonra isə Kasparovun tituluna bir addım da yaxınlaşan Rəcəbov şahmat üzrə dünya çempionatının yarımfinalçısı olub. 22 yaşından başlayaraq 3 dəfə Avropa çempionu olub. Həmçinin, bir il ərzində 3 FİDE dünya çempionunu məğlub edən yeganə şahmatçıdır.

Tədbirdə həmçinin Aynur Sofiyeva haqqında hazırlanmış slaydla tanış olaq. Aynur Sofiyeva 1970-ci il iyulun 19-da Qax rayonunda anadan olub. 1974-cü ildən idmanın şahmat növü ilə məşğul olub. 6 yaşında gənclər arasında rayon çempionu, 14 yaşında qızlar arasında, 15 yaşında qadınlar arasında Azərbaycan çempionu, 16 yaşında qızlar arasında SSRİ çempionu adını qazanıb. 20 yaşında tələbələr arasında dünya çempionu (2 qızıl medal), həmin ildə 20 yaşadək qızlar arasında dünya çempionatının gümüş medalçısı, 1993-cü ildə Azərbaycan komandasının tərkibində 26 yaşadək gənclər arasında dünya çempionatında gümüş medal qazanıb, bir çox beynəlxalq turnirlərin qalibi olub. 1990-cı ildə Azərbaycanın ilk beynəlxalq qrossmeysteri, İslam dünyasında isə qadınlar arasında ilk beynəlxalq qrossmeyster adını qazanıb. 1986-cı ildə orta məktəbi qızıl medalla bitirərək Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə daxil olub, 1991-ci ildə fakültəni fərqlənmə diplomu ilə bitirib.



Aynur Sofiyeva 1997-2001-ci illərdə Bakı Dövlət Universitetində hüquqşünaslıq ixtisası üzrə ikinci ali təhsil alıb. 1991-ci ildən 1998-ci ilədək idman sahəsində bir sıra məsul vəzifələrdə çalışmışdır.

1998-2000-ci illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində baş hüquq məsləhətçisi vəzifəsində çalışıb.
2000-2005-ci illərdə İkinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub.
2002-2007-ci illərdə Azərbaycan Şahmat Federasiyasının Prezidenti olub.
Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2007-ci ildə Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini vəzifəsinə təyin edilib.
2016-cı ildən Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvüdür.
1995-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. Partiyanın VII qurultayında (5 mart 2021-ci il) YAP İdarə Heyətinin üzvü seçilib.
Tədbir . Bir sıra monoqrafiyanın, "Mən Allah adamıyam" şeirlər kitabının müəllifi, Beynəlxalq EKO Energetika akademiyasının memarlıq və inşaat doktoru, Moskva Şəhər Dumasının üzvü, "Gülağa Qənbərov fondu"nun prezidentinin "Tac ol Azərbaycan" şeiri ilə davam edir. Bu şeiri Gülağa Tənha Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində VI beynəlxalq şahmat turnirində iştirak edən Şəhriyar Məmmədyarova həsr edib. Şeiri sizlərə təqdim edirik.

O günü o görüşü
Qisasa tən bilirdin.
Sən şahmat taxtasını,
Sanki Vətən bilirdin.
Nələri xatırladın?
Hər gedişi edəndə,
Xocalıda qar üstə
Qalan analarımı?
Əsir düşməsin deyə,

Murovdağı aşanda
Öz ömrünə qəsd edən
Tənha sonalarımı?
Nələri xatırladın?
Dərdin əlindən tutub,
Qarda qaçanlarımı?
Dar ayaqda əlini
Göyə açanlarımı?!
Nələri xatırladın?
Göz yaşı ürəyinə
Axan balalarımı?
Beləyindən qan sızan
Körpə balalarımı?
Nələri xatırladın?
Sinəsində körpəsi
Donan gəlinlərimi?
Son ümidi bir anda
Sönən gəlinlərimi?
Nələr yadına düşdü?
Oğulların sinəsi
Tuş oldu güllələrə.
Döyüşdə su yerinə
Qan içirdi dağ dərə…
Hər gedişdən-gedişə
Kükrəyirdi nifrətin.
Tomrisi, Həcəriydin
Bu döyüşdə millətin!
Bir ümid dikəlmişdi,
O anda sənə sarı.
Son gedişi elədin,

Durdun,
Ayağa durdun
Qalib döyüşçü kimi
Baxdın Vətənə sarı!
Oğul qeyrətli qızsan,
Qalib gəldin düşmənə!
Bir təsəlli ələndi
Vətən məhəbbətinə!
Hünərin dərs oldumu
Vətənin dar günündə
Döyüşdən qaçanlara?
Arını, qeyrətini
Qorxuya satanlara?
Xəstəlik kağızının
Dalında yatanlara?
Düşmənin yaxasından,
Yapışan əlim oldun!
Tariximə söykənib
Danışan dilim oldun!
Bir yolun yolçususan.
Uğurlar gətirəcək
Bu yol Azərbaycana!
Şahmat tacını gətir,
Tac ol Azərbaycana!

Bir sözlə 20 iyul Beynəlxalq Şahmat Günü münasibətilə bütün şahmatçılarımızı səmimi qəlbdən təbrik edirik, onlara zehn açıqlığı, yarışlarda qalib gəlib, medal qazanmalarını arzu edirik!

**F.Köçərli adına RUK-nın Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı**

**Ədəbiyyat siyahısı**

**Kitablarda**

**Allahverdiyev E. C.** Şahmat oyunu dərsliyi. - Bakı : MBM, 2004. - 252 s.

**Quliyev Ş.** Azərbaycanda şahmatın tarixi. - Bakı : 2012. - 320 s.

**Rüstəmov B. Ə.** Şahmat : I hissə. - Bakı : Araz, 2011. - 164 s.

**Rüstəmov B. Ə**. Şahmat : II hissə. - Bakı : Araz, 2012. - 224 s.

Şahmatı öyrənirəm : 4-7 yaş. - Bakı : Hədəf Nəşrləri, 2015. - 40 s.

**Dövrü mətbuatda**

**2015-ci ildə** şahmat üzrə Dünya Kubokunun və 2016-cı ildə Ümumdünya **Şahmat** Olimpiadasının Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 fevral 2012-ci il). // Azərbaycan. - 2013. - 15 fevral. - № 35. - S. 1.

**Allahverdiyeva S.** Vüqar Həşimov həyatını şahmatdan ayrı təsəvvür etmirdi // Respublika. - 2014. - 20 aprel. - № 80. - S. 4.

**Aydınoğlu O.** Şahmat Azərbaycancanda öz yerini tutmalıdır // Xalq qəzeti. – 1998. – 19 dekabr. – S. 3.

**Aslan A.** Şahmat sirlər dünyasıdır // Savalan. – 2002. – 3-16 iyul.

**Bayramov O.** Dünyanın ən yüksək reytinqə malik on qrossmeysterindən ikisi Azərbaycanda yaşayır // Xalq qəzeti. - 2007. - 24 iyul. - S. 5.

**Bayramov O.** Şəhriyar Məmmədov dünyanı ikinci dəfə fəth etdi // Xalq qəzeti. - 2005. - 23 noyabr. - S.8.

**Bayramov O.** Qrossmeysterlər üçün daha bir sınaq : Hollandiyanın Veyk-an-Zee şəhərində ənənəvi beynəlxalq şahmat turniri haqqında // Xalq qəzeti. - 2006. - 15 yanvar. - S.6.

**Bayramov O.** Sabah Məmmədyarov Topalovla görüşəcək : Hollandiyanın Veyk-an-Zee şəhərində ənənəvi beynəlxalq şahmat turniri haq-da // Xalq qəzeti. - 2006. - 18 yanvar. - S.8.

**Bayramov O.** Heydər Əliyevin müdrik gedişləri : və ya o illərin uşaq şahmatçıları - bugünün üçqat Avropa çempionları // Xalq qəzeti. - 2018. - 11 dekabr. - № 279. - S. 5.

**Bayramov O.** Teymur Rəcəbovun yüksək ustalığının etirafı // Azərbaycan. - 2008. - 7 fevral. - S. 7.

**Cəfərov R.** Şahmat üzrə Dünya Kubokunun ilk azərbaycanlı sahibi // Azərbaycan : qəzet. - 2019. - 6 oktyabr. - № 221. - S. 6.

**Əliyev C.** Şəhriyar Məmmədyarov - Dünya Çempionu // Sportsman. - 2013. - № 74. - S. 8-10.

**Əliyev C**. Avropanın ən intellektual insanları : şahmat // Sportsman. - 2013. - № 78. - S. 8-11.

**Əsədov B.** Quşadasından Dünya kubokuna uçuş : Rauf Məmmədov haqqında // Azərbaycan. - 2006. - 26 aprel. - S.8.

**Əsədov B.** Dünya bir şahmatdır, unutma bunu... // Azərbaycan. - 2005. - 9 noyabr.

**Əsədov B.** Şahmat üzrə Avropa çempionatından Dünya Kubokuna doğru : Şahmatçı Rauf Məmmədov haqqında // Xalq qəzeti. - 2007. - 16 noyabr. - S. 8.

**Əsədov B.** Dünyanın yüz ən yaxşı şahmatçısının ən gənci Teymur Rəcəbovdur // Azərbaycan. – 2002. – 26 oktyabr

**Hacı K.** Şahmat da bir sirr kitabıdır : Qreqori Samakın "Sir kitabı" romanı haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 20 oktyabr. - № 39. - S. 30.

**Hüseynova P.** Azərbaycan şahmatının baniləri // Savalan. - 2006. - 17-23 oktyabr. - S. 7.

İstanbul festivalının azərbaycanlı qalibləri - Ayaz Məmmədov və Nicat Abbasov // Xalq qəzeti. - 2006. - 9 sentyabr. - S.6.

**İsmayılov N.** Şahmat elçisi // Xalq qəzeti. – 2000. – 13 aprel.

**Kərimova S.** Rəqiblərini mat edən balaca şahmatçı : Günay Məmmədzadə haqqında // Azərbaycan Müəllimi. - 2010. - 19 fevral. - N 7. - S. 24.

Kim sevirsə idmanı : **Şahmat** haqqında // Göy qurşağı. - 2007. - № 3(8). - S. 29.

Qrossmeyster Teymur Rəcəbova // Respublika. - 2019. - 5 oktyabr. - № 219. - S. 1

**Quliyev A.** Müharibə, məhəbbət, şahlar və şahmat // Ulduz. – 1967. - № 3. – S. 45-48.

**Quliyev İ.** Şahmat necə yarandı? // Azərbaycan pioneri. – 1984.- 12 iyun.

**Quliyev V.** Azərbaycan şahmatının əjdahası. : Vüqar Həşimov 28 illik ömrünə böyük nailiyyətlər sığışdırdı // Kaspi. - 2014 - 24 yanvar. - № 12. - S. 19.

**Quliyev Ş.** Məhsəti və şahmat //Azərbaycan qadını. – 1975. - №7. – S. 16-17.

**Quliyev Ş.** Şahmat tariximizi vərəqlərkən // Ulduz. – 1968. - № 12. – S. 59-61.

**Mehdiyev A.** Azərbaycan şahmatı Avropanın zirvəsində // Azərbaycan. - 2013. - 22 noyabr. - № 257. - S. 8.

**Musayeva Y.** Ag-qara dünyanın atlı şahzadəsi // Azərbaycan : qəzet. - 2019. - 26 may. - № 115. - S. 7

**Nəcəfxanlı Ə.** Bir şahmat məktəbinin uğurları : Masallıda yerləşən uşaq-gənclər şahmat məktəbinin fəaliyyəti haqqında // Xalq qəzeti. - 2009. - 25 yanvar. - S. 6.

Odessadan Linaresədək : Teymur Rəcəbov haq-da // Xalq qəzeti. - 2006. - 22 dekabr. - S. 8.

**Rahim C.** Dümanın Xan qızına bağışladığı şahmat fiquru bu muzeydədir : İncəsnət muzeyindən reportaj // Planet. - 2007. - 09 oktyabr. - S. 1,6.

**Rəna.** Şahmatın tarixinə qısa nəzər // Planet. - 2006. - №06. - sentyabr. - S.11.

**Sahib.** Azərbaycan şahmatının möhtəşəm uğuruna aparan yol : Tarixi nailiyyətə imza atan Teymur Rəcəbov, ilin idmançısı adına ən real namizəddir // Kaspi. - 2019. - 11 oktyabr. - № 187. - S. 14.

Şahmat kralları. Maks Eyve // Azərbaycan pioneri. – 1969. – 5 sentyabr.

Şahmat kralları. Mixail Botvinnik // Azərbaycan pioneri. – 1969. – 17 oktyabr.

Şahmat kralları. Vasili Smıslov // Azərbaycan pioneri. – 1969. – 28 noyabr.

Şahmat : müdrik və ədalətli oyun // Elli. - 2012. - № 2. - S. 28.

Şahmat məktəbi : Şahmat haqda rəvayət // Sehrli dünya. - 2012. - № 6. - S. 30-31.

Şahmat tarixində ilk dəfə // Azərbaycan pioneri. – 1978. – 17 noyabr.

Şahmat taxtası arxasında özümü daha xoşbəxt və şən hiss edirəm // Tumurcuq. - 2006. - mart. - №3. - S.17.

**Şahlar və şahmat // Azərbaycan pioneri. – 1966. – 15 noyabr.**

**Vəlibəyov Z. Şahmatın tarixi // Elm və həyat. – 1964. - № 2. – S. 20.**

**Vəlibəyov Z. Şahmatın tarixi // Elm və həyat. – 1965. - № 1. – S. 16-18.**

**Yeniyetmə** şahmat**çılarımız Avropa** çempionatında : Herseq-Novi şəhərində (Çerniqoriya) keçirilən Avropa çempionatı // Xalq qəzeti. - 2006. - 9 sentyabr. - S.6.

**Ziyadov R.** Şahmat üzrə Azərbaycan çempionu : Məğrurə İmanlı haqqında // Azərbaycan Müəllimi. - 2012. - 11 may. - № 18. - S. 11.

**Şahmat bədii ədəbiyyatda**

**Abdulla Ə.** Şahmat : şeir // 525-ci qəzet. - 2019. - 17 may. - № 76. - S. 4.

**Kerroll L**. Alisa güzgü arxasında - Bakı : Qanun, 2018. - 160 s.

**Mehdiyev İ.** Arzu edək ki… // Göyərçin. – 1989. - № 4.

**Mənsur N.** Düzüm-düzüm işıqlar ; Qış nağılı ; Şahmat ; Sumqayıt : şeirlər // Göyərçin. - 2018. - № 12. - S. 6.

Oyuncaq müharibə : əfsanə // Sehrli dünya. - 2012. - №4. - S. 32-33.

**Şeir,** şahmat**,** Çaldıran döyüşü və 1000 ədəd qızıl pul : rəvayət // Ədəbiyyat qəzeti. - 2017. - 10 iyun. - № 21. - S. 16-17.

**Beynəlxalq şahmat günü**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**